

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 223 (23.635)

*22 dekabr 2020-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Əfqanıstan İslam Respublikasının milli təhlükəsizlik müşaviri Hamdullah Mohibi və Prezident Administrasiyasının rəhbəri Mohammad Şakir Kargarı qəbul edib.

Görüşdə Əfqanıstan Prezidentinin münaqişənin ilk günlərindən Azərbaycana verdiyi siyasi dəstək və Əfqanıstanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi yüksək qiymətləndirilib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq əlaqələrimizin inkişafında əldə olunan nailiyyətlər qeyd edilib, əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirilib. Azərbaycan və Əfqanıstan prezidentlərinin şəxsi münasibətlərinin əlaqələrimizin inkişafında rolu xüsusi vurğulanıb.

Söhbət zamanı münaqişənin bitməsinin regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında əhəmiyyəti qeyd edilib və bunun çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirilib.

Görüşdə iqtisadi, təhlükəsizlik, investisiya qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "İgidliyə görə" medalı ilə təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Salmanov Rafael Faiq oğlu – mayor**
**Yunusov Əli Rafiq oğlu – kapitan**
**Axundzadə Cavidan Ramil oğlu – baş leytenant**
**Əliyev Alışan Alı oğlu – baş leytenant**
**İsmayıllı Elmin Qafar oğlu – baş leytenant**
**Qurbanov İlknur Qərib oğlu – baş leytenant**
**Səmidov Cavad İltifat oğlu – baş leytenant**
**Şamxal Seyfulla oğlu – baş leytenant**
**Alışov Yasin Yaşar oğlu – leytenant**
**Əhmədov Elsevər Yadigar oğlu – leytenant**
**Cəbiyev Malik Əjdər oğlu – gizir**
**Ələkbərov Bağır Əsəd oğlu – gizir (ölümündən sonra)**
**Əliyev Yadigar Səfxan oğlu – çavuş (ölümündən sonra)**
**Rzayev Azadi Allahqulu oğlu – çavuş**
**Xəlilli Murad Vəli oğlu – kiçik çavuş (ölümündən sonra)**
**Abbasov Cavid Çapay oğlu – əsgər**
**Bağırov Ramin Nəriman oğlu – əsgər (ölümündən sonra)**
**Cəfərov Ülvi Habil oğlu – əsgər (ölümündən sonra)**
**Cəlilov Həsən Məhərrəm oğlu – əsgər (ölümündən sonra)**
**Əliyev Lətif Oruc oğlu – əsgər (ölümündən sonra)**
**Əsgərov Təbriz Çapay oğlu – əsgər (ölümündən sonra)**
**Əzizli Elnur Şahin oğlu – əsgər (ölümündən sonra)**
**Həsənov Burhan Vüqar oğlu – əsgər**
**Hüseynov Məzahir Rafiq oğlu – əsgər**
**İbrahimov Ayaz Sultan oğlu – əsgər (ölümündən sonra)**
**İbrahimov İbrahim Etibar oğlu – əsgər (ölümündən sonra)**
**İsgəndərov Niyaməddin Qulu oğlu – əsgər (ölümündən sonra)**
**İsmayılov Bahaləddin Temraz oğlu – əsgər (ölümündən sonra)**
**İsmayılov Rəşid Raiq oğlu – əsgər**
**Məhərrəmov Cahandar Məhərrəm oğlu – əsgər**
**Məmmədov Kəmaləddin İsrail oğlu – əsgər (ölümündən sonra)**
**Rəhimov Yalçın Elçin oğlu – əsgər (ölümündən sonra)**
**Seyidov Mirkamal Mirməhəmməd oğlu – əsgər**
**Səfərov Ceyhun Qəmbər oğlu – əsgər**
**Yüzbaşyev İsmayıl Fəzayıl oğlu – əsgər (ölümündən sonra)**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Cəsur döyüşçü" medalı ilə təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Hacıyev Eltac Nemət oğlu – mayor**
**Məmmədov Amil Ədalət oğlu – baş gizir**
**Cəfərov Tapdıq Kazım oğlu – gizir**
**Hüseynov Səxavət Ərəstun oğlu – gizir**
**Zeynalov Elmin Eldəniz oğlu – gizir**
**Ağayev Elşad Əli oğlu – kiçik çavuş**
**Cəfərli Hilal Daşqın oğlu – kiçik çavuş**
**Əsədov Unutmaz Yusif oğlu – kiçik çavuş**
**Əsgərov Şamo Aqif oğlu – kiçik çavuş**
**Haqverdiyev Yusif Məhərrəm oğlu – kiçik çavuş**
**Hüseynov Sərxan Vaqif oğlu – kiçik çavuş**
**İbrahimli Sadiq Natiq oğlu – kiçik çavuş**
**Qədimov Coşqun Nurəli oğlu – kiçik çavuş**
**Möhsümov Elnar Rövşən oğlu – kiçik çavuş**
**Musayev Xəyal Məcnun oğlu – kiçik çavuş**
**Abbasov Təbriz Akim oğlu – əsgər**
**Abdullayev Nihad Habil oğlu – əsgər**
**Abdullazadə Amin Mütalib oğlu – əsgər**
**Bədəlov Nihal Behbud oğlu – əsgər**
**Cəfərov Anar Həmid oğlu – əsgər**
**Düniyev Şahram Qasid oğlu – əsgər**
**Eyvazov Turqut Firuz oğlu – əsgər**
**Ələkbərov Ceyhun Araz oğlu – əsgər**
**Əliyev Asim Ramiz oğlu – əsgər**
**Əliyev İbrahim Zöhrab oğlu – əsgər**
**Əliyev İlqar Mübariz oğlu – əsgər**
**Əliyev Kamran-Şahin İlham oğlu – əsgər**
**Əliyev Roman Lətif oğlu – əsgər**
**Əliyev Vüsal Yolçu oğlu – əsgər**
**Əlizadə Məhəmməd Hüseyn oğlu – əsgər**
**Əsədli Nəcəf Ehtibar oğlu – əsgər**
**Əsgərov Rahim Zahid oğlu – əsgər**
**Fərəcli Abbas Oktay oğlu – əsgər**
**Fərəcov Cəbrayıl Famil oğlu – əsgər**
**Hacızadə Eltac Camaləddin oğlu – əsgər**
**Həsənov Kazım Əli oğlu – əsgər**
**Həziyev Musa Natiq oğlu – əsgər**
**Hümbətli Elgiz Nazim oğlu – əsgər**
**Hüseynquliyev İsmayıl Yaşar oğlu – əsgər**
**Hüseynov Abbas Nazim oğlu – əsgər**
**Hüseynzadə Məhəmmədəli Hakim oğlu – əsgər**
**Xudiyev Murad Baba oğlu – əsgər**
**İbrahimov Nurhan Osman oğlu – əsgər**
**İsayev Sərvin Arzu oğlu – əsgər**
**İsgəndərli Murad Cavanşir oğlu – əsgər**
**İsmayıllı Əfsun Çərkəz oğlu – əsgər**
**Kərimov Xəyal İlqar oğlu – əsgər**
**Kərimov Pərviz Fərman oğlu – əsgər**
**Kərimov Rəvan Rəfail oğlu – əsgər**
**Kərimov Zaur Əbülfət oğlu – əsgər**
**Qasımov Kənan Əkbər oğlu – əsgər**
**Qənbərov Bəxtiyar Ramazan oğlu – əsgər**
**Qəribov Bəxtiyar Əkrəm oğlu – əsgər**
**Quliyev Namin Qurbanəli oğlu – əsgər**
**Quliyev Nəcəf Qulu oğlu – əsgər**
**Qurbanov Elsun Rasif oğlu – əsgər**
**Mehdiyev Kənan Məhərrəm oğlu – əsgər**
**Məhərrəmov Şahin Həsən oğlu – əsgər**
**Məmmədov Bəhruz Teymur oğlu – əsgər**
**Məmmədov Çingiz Nüsrət oğlu – əsgər**
**Məmmədov Emil Şahin oğlu – əsgər**
**Məmmədov Əmrah Fəxrəddin oğlu – əsgər**
**Məmmədov Həmid Şəmsail oğlu – əsgər**
**Məmmədov Qardaşxan Təvəkkül oğlu – əsgər**
**Məmmədov Namiq İlqar oğlu – əsgər**
**Məmmədov Oktay Ceyhun oğlu – əsgər**
**Mirzəməmmədov Fərman Bəxtiyar oğlu – əsgər**
**Mirzəyev Ağalar Həmid oğlu – əsgər**
**Musayev Əli Musa oğlu – əsgər**
**Mustafayev Şəmsi Şəmo oğlu – əsgər**
**Nabataliyev Samir Behbut oğlu – əsgər**
**Nadirov Nadir Fərman oğlu – əsgər**
**Nəcəfov Ruslan Vahid oğlu – əsgər**
**Nəcəfov Rüfət Ədalət oğlu – əsgər**
**Nəzərov Mehdi Səyavuş oğlu – əsgər**
**Novruzov Rəman Qurban oğlu – əsgər**
**Rzalı Pərvin Natiq oğlu – əsgər**
**Rzayev Araz Əli oğlu – əsgər**
**Salahov Rauf Yaşar oğlu – əsgər**
**Səfərov Samir Abil oğlu – əsgər**
**Səfərov Zamin Tofiq oğlu – əsgər**
**Sultanov Elşən Siyafər oğlu – əsgər**
**Süleymanlı Kənan Asəf oğlu – əsgər**
**Süleymanov Ələsgər Ələkbər oğlu – əsgər**
**Süleymanov Nicat Şucaət oğlu – əsgər**
**Tağıyev Qadir Heydər oğlu – əsgər**
**Vahidli Vahid Habil oğlu – əsgər**
**Zeynalov Ayhan Rza oğlu – əsgər**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərmiş, habelə təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları “Döyüşdə fərqlənməyə görə” medalı ilə təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Babayev Namiq Əlibala oğlu – polkovnik-leytenant**
**Qələndərli Alim Kamal oğlu – kapitan**
**Mirzəliyev Elşad Elxan oğlu – kapitan**
**Rəhimov Mirtağı Adil oğlu – kapitan**
**Səmədov Mirhaşim Nəcəfəli oğlu – kapitan**
**Zeynalov Şahin İlham oğlu – kapitan**
**Abbaszadə Ülvi Elman oğlu – baş leytenant**
**Abdurahmanov Elşən Vəliyəddin oğlu – baş leytenant**
**Babayev Fariz Arzu oğlu – baş leytenant**
**Babayev Fariz Əlibaba oğlu – baş leytenant**
**Cəbizadə Qismət Məlik oğlu – baş leytenant**
**Əliyev Xanlar Yaşar oğlu – baş leytenant**
**Əsədov Bəxtiyar Əsəd oğlu – baş leytenant**
**Göyüşov Rəsul Ziyəddin oğlu – baş leytenant**
**Gözəlov Ruslan Kəyan oğlu – baş leytenant**
**İsmayılzadə İsmayıl Vaqif oğlu – baş leytenant**
**Məmmədli Nicat Rəşad oğlu – baş leytenant**
**Məmmədzadə Musa Yusif oğlu – baş leytenant**
**Məstanov Novruz İkram oğlu – baş leytenant**
**Misirxanov Eşqin Ümüdvar oğlu – baş leytenant**
**Pirişov Elmir Bahəddin oğlu – baş leytenant**
**Seyfəddinli Namiq Natiq oğlu – baş leytenant**
**Taqızadə Pərvin Sadıx oğlu – baş leytenant**
**Abasov Toğrul Teymur oğlu – leytenant**
**Babayev Emin İlham oğlu – leytenant**
**Əbdürəhimov Rauf Cabir oğlu – leytenant**
**Əsədov Elvin Qorxmaz oğlu – leytenant**
**Hümmətov Şirxan Rəhim oğlu – leytenant**
**Məlikov Kənan Arzu oğlu – leytenant**
**Paşayev Əli Qalib oğlu – leytenant**
**Sahibi Azər İnqilab oğlu – leytenant**
**Səmədov Asif Elçin oğlu – leytenant**
**Cavadov Sədat Muxtər oğlu – baş gizir**
**Eyvazov Nail Rəsul oğlu – baş gizir**
**Əliyev Bayram Mehman oğlu – baş gizir**
**Əliyev Elxan Oktay oğlu – baş gizir**
**Ənnağıyev Aban Əbdüləli oğlu – baş gizir**
**Həsənli Vüqar Akif oğlu – baş gizir**
**Hüseynov Cehun Elçin oğlu – baş gizir**
**İbrahimov Kamran Çingiz oğlu – baş gizir**
**Qasımov Elmar Müslüm oğlu – baş gizir**
**Məmmədov Özgan Səməd oğlu – baş gizir**
**Məmmədov Vidadi Ələkbər oğlu – baş gizir**
**Rüstəmov Azər Əlövsət oğlu – baş gizir**
**Bayramov Həbib Pirnazar oğlu – gizir**
**Əsədullayev Ümidvar Cabir oğlu – gizir**
**Mirzəyev Abasət Hüseyn oğlu – gizir**
**Rəhimov Dövrani Umud oğlu – gizir**
**Sadiqov Rahib Əsgər oğlu – gizir**
**Səfizadə İmran Xudaverdi oğlu – gizir**
**Nəsirov Emin Taleh oğlu – baş çavuş**
**Əliyev İlkin Natiq oğlu – çavuş**
**Qəhrəmanlı Təvəkkül Hafiz oğlu – çavuş**
**Quliyev Nurlan Oruc oğlu – çavuş**
**Quliyev Zahid Vahid oğlu – çavuş**
**Orucov Kənan Allahverdi oğlu – çavuş**
**Bağırov Məmmədbağır Murtuza oğlu – kiçik çavuş**
**Bayramov Məhəmməd Ədalət oğlu – kiçik çavuş**
**Ələkbərov Rəşad Ələsgər oğlu – kiçik çavuş**
**Əliyev Rəşid İbrahim oğlu – kiçik çavuş**
**Hüseynov Kamal Hüseyn oğlu – kiçik çavuş**
**Hüseynov Məhərrəm Kərəm oğlu – kiçik çavuş**
**Hüseynov Rəfael Pənah oğlu – kiçik çavuş**
**İsmayılov Rəşadət Musa oğlu – kiçik çavuş**
**Kərimov Tağı Nağı oğlu – kiçik çavuş**
**Qocayev Xəyal Məhəmməd oğlu – kiçik çavuş**
**Quluyev Əmirxan Bilman oğlu – kiçik çavuş**
**Mahmudov Nicat Rüstəm oğlu – kiçik çavuş**
**Seyidli Rəfael Məhərrəm oğlu – kiçik çavuş**
**Seyidov Mirsamil Ağa oğlu – kiçik çavuş**
**Tağıyev Daşqın İlham oğlu – kiçik çavuş**
**Tağıyev Şahmar Musa oğlu – kiçik çavuş**
**Zamanov Rza Zöhrab oğlu – kiçik çavuş**
**Abbasov Hicran Şiralı oğlu – əsgər**
**Abdullayev Xıdır Əfəndi oğlu – əsgər**
**Abdullayev Vidadi Azad oğlu – əsgər**
**Abdullazadə Röyal Əli oğlu – əsgər**
**Allahverdiyev Abbas İbrahim oğlu – əsgər**
**Alməmmədov Nihal Natiq oğlu – əsgər**
**Babayev Elxan Həsrət oğlu – əsgər**
**Babayev Murad Ələsgər oğlu – əsgər**
**Babayev Rasim Elxan oğlu – əsgər**
**Babayev Turqay Valeh oğlu – əsgər**
**Babayev Zülfüqar Atakişi oğlu – əsgər**
**Bağırov Etibar Hüseyn oğlu – əsgər**
**Bağırov Tamerlan Mirzə oğlu – əsgər**
**Baxışov Məhəmmədəli Rəşad oğlu – əsgər**
**Bayramlı Fərrux Şüküran oğlu – əsgər**
**Bayramov Amin Vüqar oğlu – əsgər**
**Bayramov Yaqub Əli oğlu – əsgər**
**Bayramov Zaur Xanlar oğlu – əsgər**
**Bəndalıyev Toğrul Rufulla oğlu – əsgər**
**Bəşirov Ümüd Zəfər oğlu – əsgər**
**Carıyev Amil Bəhram oğlu – əsgər**
**Cavadov Həsən Ramiz oğlu – əsgər**
**Cəfərov Qalib Beytulla oğlu – əsgər**
**Cəlilov Elşən Musa oğlu – əsgər**
**Dünyamalıyev Elməddin Müşviq oğlu – əsgər**
**Dünyamalıyev Məmməd Natiq oğlu – əsgər**
**Əhmədov Fərid Dilqəm oğlu – əsgər**
**Əhmədov Həmid Eldar oğlu – əsgər**
**Ələsgərov Məcid Azər oğlu – əsgər**
**Əlixanov Xızır Saleh oğlu – əsgər**
**Əliyev Aslan İsgəndər oğlu – əsgər**
**Əliyev Cavad Rəşid oğlu – əsgər**
**Əliyev Hüseyn Əhməd oğlu – əsgər**
**Əliyev Hüseyn Zülfüqar oğlu – əsgər**
**Əliyev İsa Akif oğlu – əsgər**
**Əliyev Kamran Vahid oğlu – əsgər**
**Əliyev Qaməddin Rüstəm oğlu – əsgər**
**Əliyev Məhəmməd Müşviq oğlu – əsgər**
**Əliyev Müzəffər Elman oğlu – əsgər**
**Əliyev Nasif Asif oğlu – əsgər**
**Əliyev Nicat Tağı oğlu – əsgər**
**Əliyev Səfər Bəylər oğlu – əsgər**
**Əliyev Tuncay Zülfüqar oğlu – əsgər**
**Əliyev Ülvi İbrahim oğlu – əsgər**
**Əliyev Vüsal Vaqif oğlu – əsgər**
**Əmirov Ələmdər Məmməd oğlu – əsgər**
**Əsədli Niyaz Yusif oğlu – əsgər**
**Fərəcov Allahverdi Adil oğlu – əsgər**
**Heydərli Taleh İntiqam oğlu – əsgər**
**Həsənov Elşən Rövşən oğlu – əsgər**
**Həsənov İsmayıl Mirzə oğlu – əsgər**
**Həsənov Samir Həsən oğlu – əsgər**
**Həsənov Şahin Akif oğlu – əsgər**
**Həsənov Şəmsi Cəmil oğlu – əsgər**
**Hüseynli Turqut Yusif oğlu – əsgər**
**Hüseynov Dağıstan Rüstəm oğlu – əsgər**
**Hüseynov Fəhmin Rasim oğlu – əsgər**
**Hüseynov Xəyal İlqar oğlu – əsgər**
**Hüseynov Teymur Ramiz oğlu – əsgər**
**Xasayev Yusif Cəmaləddin oğlu – əsgər**
**Xəlilli Təbriz Cabbar oğlu – əsgər**
**Xəlilov Xanlar Seyfəddin oğlu – əsgər**
**Xudanov Tağı Əhməd oğlu – əsgər**
**Xudiyev Qabil Qasım oğlu – əsgər**
**İbadov Şəmsəddin Azad oğlu – əsgər**
**İbrahimli Elşən İlqar oğlu – əsgər**
**İbrahimli Məhsum Məhərrəm oğlu – əsgər**
**İbrahimov Məftun Rasim oğlu – əsgər**
**İbrahimov Rəhman Vüqar oğlu – əsgər**
**İdrisov Vilayət Nizami oğlu – əsgər**
**İsgəndərov Təbriz Əfsələddin oğlu – əsgər**
**İsmayılov İbrahim Xeybər oğlu – əsgər**
**Kazımov Ülvü Yusif oğlu – əsgər**
**Kərimli Aqil Əlizamin oğlu – əsgər**
**Kərimli Namiq Telman oğlu – əsgər**
**Kərimli Sunay Şahin oğlu – əsgər**
**Kərimov İlkin Ramis oğlu – əsgər**
**Kərimov Ramin Rəfayıl oğlu – əsgər**
**Qafarov Orxan Məmməd oğlu – əsgər**
**Qafqazi Eltun Qeys oğlu – əsgər**
**Qarayev Qəhraman Maşallah oğlu – əsgər**
**Qasımov Şahin Yasin oğlu – əsgər**
**Qazıbəyov Fəxri Ramazan oğlu – əsgər**
**Qədimov Rəşad Məhbus oğlu – əsgər**
**Qənbərov Yavər Calal oğlu – əsgər**
**Quliyev Əli Oktay oğlu – əsgər**
**Qurbanov Qüdrət İlqar oğlu – əsgər**
**Qurbanov Sadıx Qənbər oğlu – əsgər**
**Mahmudov Pənah Vəli oğlu – əsgər**
**Mazanov Müslüm Mazan oğlu – əsgər**
**Məhərrəmli Coşqun Mahir oğlu – əsgər**
**Məhərrəmov Famil Cəmşid oğlu – əsgər**
**Məhərrəmov Tural Heydar oğlu – əsgər**
**Məmmədli Taleh Yavər oğlu – əsgər**
**Məmmədli Tayfun Araz oğlu – əsgər**
**Məmmədov Babək Alek oğlu – əsgər**
**Məmmədov Elşən Heydər oğlu – əsgər**
**Məmmədov Eltun Məhərrəm oğlu – əsgər**
**Məmmədov Emin Qorxmaz oğlu – əsgər**
**Məmmədov Ədif Elçin oğlu – əsgər**
**Məmmədov Fərdi Taleh oğlu – əsgər**
**Məmmədov Hüseyn Əlqismət oğlu – əsgər**
**Məmmədov Kənan Nəcəf oğlu – əsgər**
**Məmmədov Kərim Vilayət oğlu – əsgər**
**Məmmədov Məmməd Ramil oğlu – əsgər**
**Məmmədov Sahil Rahim oğlu – əsgər**
**Məmmədov Sahil Tağı oğlu – əsgər**
**Məmmədov Samil Ədalət oğlu – əsgər**
**Məmmədov Sübhan Nəbi oğlu – əsgər**
**Məmmədov Taciraddin Əliyəddin oğlu – əsgər**
**Məmmədov Ülvi İlqar oğlu – əsgər**
**Məmmədov Zaur Seyfəddin oğlu – əsgər**
**Muradov Nəvai Səfər oğlu – əsgər**
**Musayev Əjdər Əliheydər oğlu – əsgər**
**Mustafayev Rahil Yolçu oğlu – əsgər**
**Mustafazadə Emin Mehti oğlu – əsgər**
**Nadirli Novruz İlqar oğlu – əsgər**
**Nəbiyev Nurəddin Şamil oğlu – əsgər**
**Nəcəfov Ceyhun İlham oğlu – əsgər**
**Nəcəfov Əhliman Qəhrəman oğlu – əsgər**
**Nəcəfov Orxan Yaşar oğlu – əsgər**
**Nəcəfzadə Teymur Vahid oğlu – əsgər**
**Nərimanlı Qurban Səhman oğlu – əsgər**
**Niftalıyev Şahin Nəsimi oğlu – əsgər**
**Ocaqverdiyev Müşfiq Sabir oğlu – əsgər**
**Pənahov Əvəz Məhəmməd oğlu – əsgər**
**Rəhimov Cəfər Firdovsi oğlu – əsgər**
**Rəhimov Kamal Famil oğlu – əsgər**
**Rəhimov Taleh Valeh oğlu – əsgər**
**Rüstəmli Rüstəm İlqar oğlu – əsgər**
**Rzaquliyev Firuddin Fəxrəddin oğlu – əsgər**
**Rzayev Burxan Şəfahət oğlu – əsgər**
**Rzayev Elbəyi Boris oğlu – əsgər**
**Rzayev Səid Rasim oğlu – əsgər**
**Sadıxov Əyyub Elməddin oğlu – əsgər**
**Sadıqov Elmidar Həsən oğlu – əsgər**
**Sadıqov Əli Vüqar oğlu – əsgər**
**Salmanov Oruc İsfəndiyar oğlu – əsgər**
**Seyidov Mirhəşim Damət oğlu – əsgər**
**Seyidov Mirsaleh Miryəhya oğlu – əsgər**
**Səfərov Əli Fikrət oğlu – əsgər**
**Səfərov Səfəralı Ramiz oğlu – əsgər**
**Süleymanlı İsrafil Adil oğlu – əsgər**
**Süleymanov Mir İsmayıl Etibar oğlu – əsgər**
**Süleymanov Süleyman Abdurəhim oğlu – əsgər**
**Tağıyev Neymət Rasim oğlu – əsgər**
**Tağızadə Yusif Sərvər oğlu – əsgər**
**Tahirov Kamil Rahim oğlu – əsgər**
**Tumasov Cahid Vəli oğlu – əsgər**
**Vəliyev Qürbət Mahir oğlu – əsgər**
**Vəliyev Salman Muxtər oğlu – əsgər**
**Yaqubov Əziz Şakir oğlu – əsgər**
**Yavərsoylu İsa Həmdulla oğlu – əsgər**
**Zamanov İlham Bəhlül oğlu – əsgər**
**Zeynalabdinzadə Elməddin Fərhad oğlu – əsgər**
**Zeynallı Asəf Həsən oğlu – əsgər**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yaralı hərbçilərlə görüşüb





Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, işğal altındakı torpaqlarımız azad olundu. Bu müharibədə xalqımız yüzlərlə şəhid verdi, yaralanan hərbi qulluqçularımız oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb, normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq...”***

Muxtar respublikada Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərin müalicəsi, eləcə də onların sağlamlıqlarının bərpası diqqətdə saxlanılır.

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vətən müharibəsində yaralanan və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicələrini davam etdirən hərbçilərlə görüşmüşdür.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri hospitalda müalicə olunan hərbçilərin səhhəti və qidalanması ilə maraqlanmış, onlarla söhbət etmiş, Vətən müharibəsində göstərdikləri şücaətin qürurverici olduğunu bildirmişdir.

Yaralı hərbi qulluqçu, “Azərbaycan bayrağı” ordenli mayor Təbriz Zeynalov öz adından və döyüş yoldaşları adından minnətdarlıq edərək demişdir ki, dövlətin qayğısını daim üzərimizdə hiss edirik. Həkimlər sağlamlığımızın bərpasına hərtərəfli kömək edirlər. Biz də bu qayğıya cavab olaraq ordu sıralarına qayıtdıqdan sonra xidmətimizi yenə də uğurla davam etdirəcəyik.

Hospitalda müalicə alan yaralı hərbi qulluqçulara hədiyyələr təqdim olunmuş, aparılan şirniyyatlar mətbəxə verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## İ.C.Qəriblinin “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsmayıl Cavanşir oğlu Qəribli “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 dekabr 2020-ci il*

# Naxçıvan Dövlət Universitetinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində olub



***Naxçıvan Dövlət Universitetinin kollektivi “Muzey günləri” çərçivəsində Naxçıvan Dövlət Xalça Muzeyində olub.***

Muzey bələdçisi tərəfindən kollektivə bildirilib ki, 1998-ci ildən fəaliyyət göstərən muzey 2010-cu ildən yeni binaya köçürülüb. 2013-cü ildə bu mədəniyyət müəssisəsində yenidənqurma işləri aparılıb, ekspozisiya yenidən təşkil olunub. Qeyd edilib ki, Naxçıvan Dövlət Xalça Muzeyinin xalçaçılıq sənətinin təbliği, yaşadılması sahəsində özünəməxsus yeri var və muzeyin fəaliyyətində yaddaqalan mədəni hadisələr, görüşlər olub. 1999-cu ilin oktyabr ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyi ilə əlaqədar Naxçıvana səfəri zamanı bu muzeydə olması əlamətdar hadisələrdən ən yaddaqalanıdır.

Vurğulanıb ki, Naxçıvan xalçaları qədim zamanlardan Azərbaycan xalçaçılıq sənətinin ən gözəl nümunələri hesab edilir. Muzeyin fonduna 4000-ə yaxın eksponat toplanıb ki, onlardan 400-dən çoxu ekspozisiyada sərgilənir. Bunlar Naxçıvan qrupuna aid çoxlu sayda xovlu və xovsuz xalça nümunələri, xalçaçılıq məmulatları, məişət əşyaları – palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalar, süjetli, portret və miniatür xalçalar, o cümlədən müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, xurcun, duz torbası və digər eksponatlardır.

Xalçalar üzərində olan naxış növləri haqqında məlumat verən bələdçi diqqətə çatdırıb ki, keçə xalça sənətinin ibtidai dövrünü təşkil edir. Sonrakı dövr üçün qamış yarpağından hazırlanan və el arasında həsir adı ilə tanınan çətən toxunub. Sonralar xovsuz xalçalar – palaz, cecim, kilim, zili, şəddə inkişafın sonrakı dövrlərində isə xovlu xalçalar toxunub. Qeyd olunub ki, Azərbaycan xalçaları 2010-cu ildə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bildirilib ki, muzeyin 2013-cü ildə üç dildə internet saytı istifadəyə verilib. Bu da həmin mədəniyyət müəssisəsinə virtual səyahət etməyə, ziyarətçilərə ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar verməyə, tarixi keçmişimizi öyrənməyə imkan yaradıb.

Sonda universitetin Pedaqoji fakültəsinin Texnologiya müəllimliyi ixtisası üzrə III kurs tələbələrinin toxuduğu xalça muzeyə hədiyyə edilib.

**Səadət ƏLİYEVA**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı muxtar respublikada dövlət orqanları əməkdaşlarının muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim diyarımızın tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır.***

# Muzey ziyarətləri davam edir



Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasını ziyarət ediblər. Məlumat verilib ki, 1982-ci ildə ulu öndərin təşəbbüsü ilə yaradılan qalereya 2000-ci ildən fəaliyyətinə Heydər Əliyev Sarayında davam edib. 2009-cu ildə binada aparılan əsaslı bərpa və yenidənqurma işlərindən sonra sarayın 3-cü mərtəbəsində qalereya üçün inzibati otaqlar və geniş ekspozisiya zalı istifadəyə verilib. Əsasən, muxtar respublika rəssamlarının əsərləri nümayiş etdirilən muzeytipli müəssisənin fondunda hazırda 150-dən çox rəssamın 500-ə yaxın rəsm əsəri mühafizə olunur, ekspozisiya zalında 70-ə yaxın rəsm əsəri nümayiş etdirilir. Qalereyada Azərbaycanda, onun Naxçıvan diyarında yaşayıb fəaliyyət göstərən rəssamlarla yanaşı, əcnəbi rəssamların da rəsm əsərləri qorunub saxlanılır, nümayiş olunur.

Muzey ziyarətçilərinə qalereyanın ayrı-ayrı guşələrində sərgilənən ekspozisiyalar haqqında ətraflı məlumat verilib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin kollektivləri Qarabağlar Türbə Kompleksini, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları Duz Muzeyini, Daxili İşlər Nazirliyinin kollektivi Milli Dəyərlər Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Yusif Küseyir oğlu türbəsini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşları Naxçıvan Biznes Mərkəzini, Ədliyyə Nazirliyi və Penitensiar Xidməti Aparatının kollektivi Heydər Əliyev Muzeyini, Fövqəladə Hallar Nazirliyi və struktur qurumların əməkdaşları Dövlət Bayrağı Muzeyini, Dövlət Gömrük Komitəsinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Ədəbiyyat Muzeyini ziyarət ediblər.

Maliyyə Nazirliyinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, İqtisadiyyat Nazirliyinin kollektivi “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumların əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyində, Kənd Təsərrüfatı Nazirliyinin, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumları, “Naxçıvanpoçt” publik hüquqi şəxsin əməkdaşları Cəmşid Naxçıvanski Muzeyində, Səhiyyə Nazirliyinin kollektivi Bəhruz Kəngərli Muzeyində, Təhsil Nazirliyinin əməkdaşları Xatirə Muzeyində, Mədəniyyət Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyində olublar.

Qeyd edək ki, dekabrın 19-da Naxçıvan Şəhər İcra Hakimiyyəti, “Nuh yurdu” qəzeti redaksiyası və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin əməkdaşları Yusif Küseyir oğlu türbəsində olublar. Rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da muzeyləri ziyarət ediblər.

✍ **Nail ƏSGƏROV**

*Əfsanəyə dönən ömürlər*

## Şuşa uğrunda canından keçən qəhrəman

***Şanlı tariximizə yazılan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. 30 ilə yaxın bir müddətdə sülh yolu ilə geri alınmasına nail ola bilmədiyimiz torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 gün ərzində düşməndən azad edildi.***

Bu qələbə heç də asan əldə olunmadı, Vətən oğulları müqəddəs torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Deyirlər, şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan könül dünyamızdır. Heç kimə bənzəmədən ömrünü Vətənə bağışlayan qəhrəmanlardır. Vətən uğrunda gedən yolun sonunun işıqlı sabahlara qovuşacağına əmin olduqlarından simalarındakı nurlu təbəssüm də, gözlərinin dərinliyindəki məna da "Öncə Vətəndir!" – deyir. Şəhidlik, eyni zamanda dövlət, millət, haqq, ədalət yolunda canından keçmək, özünü fəda etməkdir. Şəhidlik könüllü şəkildə, bilə-bilə özünü odun-alovun içinə atmaq, bir an belə, tərəddüd etmədən, göz qırpmadan ölümün üzərinə getmək, ölümün gözünə dik baxmaqdır. Şəhidlik elə bir zirvədir ki, bu zirvəni fəth etmək hər kəsə nəsib olmur.

Bu gün Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada bir şəhid məzarına rast gəlməyək. Çünki "Torpaq, uğrunda ölən varsa, Vətəndir!" – deyib döyüşə atılan igid oğullarımız saysız-hesabsızdır. Vətənpərvərlik hissi, döyüş ruhu tarixən naxçıvanlı gənclərdə də yüksək səviyyədə olub. Naxçıvanımızın igid oğulları döyüşlərdə əsl qəhrəmanlıq göstərib, öz igidlikləri ilə tarix yazıblar.

Belə igidlərdən biri də İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuş, şəhid kapitan Şamil Babayevdir.



O, 1988-ci il yanvarın 26-da Culfa rayonunun Camaldın kəndində doğulub boya-başa çatmış, 1995-ci ildə M.Seyidov adına tam orta məktəbin birinci sinfinə daxil olmuş və məktəbi əla qiymətlərlə başa vurmuşdu. Yeniyetməlik dövrünə qədəm qoyanda peşəkar hərbçi olmaq onun arzusu idi. Bu səbəbdən də hərbi təhsilini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində almışdı. Hərbi məktəbi bitirdikdən sonra Daxili Qoşunların Lənkəran şəhərində yerləşən hərbi hissəsində xüsusi təyinatlı dəstəsində qrup komandiri kimi xidmətə başlamışdı. 2018-ci ildə Türkiyənin İzmir şəhərinə gedərək 6 aylıq "Foça Jandarma Komando okulu ve Eğitim Mərkəzi Komutanlığı" kursunu bitirmişdi. Hərbi xidmətdə olduğu müddətdə Daxili İşlər nazirinin əmri ilə 2020-ci il mayın 12-də kapitan hərbi rütbəsini almışdı.

Şamil işğal altında olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə ilk gündən şücaətlə iştirak etmişdir. Döyüş bölgəsində ön cəbhədə xidmət göstərən Şamil torpağın hər bir qarışının alınması zamanı ən mürəkkəb döyüş əməliyyatlarında cəsurluğu ilə fərqlənmişdir. Bir neçə dəfə yaralanmasına baxmayaraq, döyüş meydanını tərk etməmiş, düşmən pusqusundan öz komandasını 1 şəhid və 1 yaralı ilə çıxarmış, oğlu döyüş meydanında vuruşan neçə əsgər anasını sevindirmişdir. Döyüş yoldaşı, əsgəri üçün sinəsini sipər edən Şamil son nəfəsinə kimi öz əsgərlərinin qayğısına qalmışdır. Şamilin axırıncı döyüşü isə alınmaz qalamız Şuşanın azadlığı uğrunda oldu. 2020-ci il noyabrın 8-də Şuşa şəhərində canından artıq sevdiyi Vətən uğrunda, torpaq uğrunda şəhidlik zirvəsinə yüksəldi...

Onun şəhid olması bizi həm qürurlandırdı, həm də çox kədərləndirdi. Qürurlandıq ona görə ki, Şamil Vətənini, torpağını qoruyarkən igidliklə, qəhrəmanlıqla, mərdliklə şəhid oldu. Kədərləndik ona görə ki, Şamil gənc idi, ailə başçısı idi.

Şamil qısa, lakin elə bir şanlı ömür yaşadı ki, unudulmaz əməlləri ilə əbədiyyətə qovuşdu, əsl Vətən oğlunun çətin məqamlarda edə biləcəyi son borcunu şərəflə yerinə yetirdi. O, igidliyi, qəhrəmanlığı ilə el-obaya gərəkli övlad, Vətənə layiqli oğul oldu, əməli ilə hər kəsin başını uca etdi. Şamili tanıyanlar, zabit yoldaşları, tabeliyində olan əsgərlər onun haqqında ancaq gözəl və müsbət fikirlər söyləyirlər: "Şamil mərd, qeyrətli və çox mükəmməl bir insan idi. Öz əsgərlərini canından çox sevir, onların hər bir probleminə böyük diqqətlə yanaşırdı. O, cəsur, fədakar, cəldliyi, çevikliyi ilə hər kəsə nümunə olan bir zabit idi. Doğulub boya-başa çatdığı, qarış-qarış gəzdiyi doğma kəndini, Naxçıvanı, bütün Azərbaycanı sevirdi".

Noyabrın 13-də şəhid hərbçimizin üçrəngli bayrağımıza bükülmüş cənazəsi Naxçıvan Beynəlxalq Hava Limanında qarşılandıqdan sonra böyük izdihamla doğulub boya-başa çatdığı Culfa rayonunun Camaldın kəndinə gətirilərək böyük ehtiramla dəfn olundu. Şamilin valideynləri gənc övladını torpağa tapşırarkən "Vətən sağ olsun!" – dedilər. Onların təskinliyi isə torpaqlarımızın işğaldan azad olunması və şəhidimizin 7 yaşlı oğul övladı Yusif idi...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli Sərəncamı ilə kapitan Babayev Şamil Baloğlan oğlu ölümündən sonra "Zəfər" ordeni, 2020-ci il 15 dekabr tarixli Sərəncamla isə "Vətən uğrunda" medalı ilə təltif edilib. Bu, igid Vətən oğlunun torpaqlarımızın mənfur düşməndən azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlığına verilən yüksək qiymət kimi, doğmalarına böyük təsəlli oldu. Bu təltiflər həm də qəhrəman oğullarımızın xatirəsinin heç bir zaman unudulmayacağını, daim uca tutulacağını bir daha təsdiq etdi.

Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçən, qəhrəmanlıq tariximizin şanlı səhifələrini yazan şəhidlərimizin adları və şücaətləri yaddaşlarda əbədi yaşayacaqdır.

**Aygün HƏMZƏYEVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin əməkdaşı***

## Şahmat yarışları davam edir




Şahmat Federasiyası, Sədərək Rayon Təhsil Şöbəsi, rayon Uşaq-Gənclər Şahmat Məktəbi və İzmir "Deha" Satranç Spor Klubunun təşkilatçılığı ilə "Bir millət iki dövlət!" devizi altında *lichess.org* saytı vasitəsilə yoldaşlıq görüşü keçirilib. Keçirilən görüşdə hər komandada 18, ümumilikdə isə 36 müxtəlif dərəcəli şahmatçı mübarizə aparıb. 1 saat 20 dəqiqə davam edən görüşün yekun nəticələrinə əsasən Türkiyə klubu xal hesabı ilə qalib gəlib.

*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Fransanın Şartr şəhərinin "C'Chartres Echecs" Şahmat Klubunun təşkilatçılığı ilə Azərbaycan-Fransa onlayn yoldaşlıq görüşü keçirilib.*



Yarışda Fransa şahmat klubu ilə Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin və Şahmat Federasiyasının 16 yaşadək şahmatçıları mübarizə aparıblar.

Hər komandanın heyətində 9 şahmatçının üç saat davam edən mübarizəsində zəka sahiblərinin hər biri iki görüş keçirib. Nəticədə, Culfa şahmatçıları 10:8 hesabı ilə qalib gəliblər.

Qrossmeysterimiz Namiq Quliyevin şərh etdiyi qarşılaşmalar *lichess.org* şahmat platformasında oynanılıb.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Kəngərli rayon bölməsinin, rayon Təhsil Şöbəsinin və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə Kəngərli və Şərur rayon şahmatçıları arasında tempo turniri keçirilib. Yarışda 40 zəka sahibi birincilik uğrunda mübarizə aparıb.

Turnirin yekun nəticələrinə əsasən ümumi yarışda Ayhan Əliyev qalib adını qazanıb. Pərviz Rzayev ikinci, Zahid Allahverdiyev isə üçüncü olublar. Müəyyən edilən yaş qruplarında (10, 12, 14 yaş) qızlar və oğlanlar arasında Məhcəbin Rzalı, Sara Rzayeva, Xatun Nəcəfova, Kənan Əlili, Azad Xəlilov və Anar Cəfərli baş mükafata layiq görülüblər.

**Ceyhun MƏMMƏDOV**

***Həyatı çətinliyə salan qışın obrazı, heç şübhəsiz ki, ulu babalarımızın təsəvvüründə qara cizgilərlə canlanırdı. Elə buna görə də, dilimizdə "Qara qış" deyimi təbiətin sərt iqliminin məzmun daşıyıcısı kimi ortaya çıxıb. Amma buna baxmayaraq, qarın insanlar üçün müsbət xüsusiyyətli olması "Qar olmasa, bar olmaz", "Qar ili, var ili" kimi atalar sözlərində də əks edilib.***

*Xalq təqvimi*

## Qışın müjdəçisi – çillə



Qədim türklər arasında qeyd olunan bayramlar, mərasimlər daha çox qış və yazla bağlı olmaqla, ilin müəyyən olunmuş günlərində qeyd edilirdi. Günümüzə qədər yaşayan bu bayramlar, adətən, payızda işlərin yekunlaşması, qışda isə mal-heyvana qulluqla bağlı olub. Belə bayramlardan biri də çillə mərasimidir. Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq "Çillə" adı ilə üç yerə bölüb. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), Kiçik çillə 20 gün (31 yanvar-20 fevral), Ala çillə və ya Ala çolpav (Boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur. Çillə bayramı, Çillə gecəsi payız fəslinin sonu, qış girən günü, yəni dekabr ayının 20-si gecəsi qeyd edilir. Çillə gecəsi ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir.

Mərhum tədqiqatçı, jurnalist Zaleh Novruzovun "Etnoqrafik yaddaşımızdan" adlı kitabında qeyd olunur ki, xalq təqviminə uyğun olaraq Böyük çillənin birinci ongünlüyü (dekabr ayı) "qarı çillə küfləyə", yanvar ayının əvvəli isə "qarı boğan" adlanır. Bundan əlavə, xalq təqvimində Böyük çillənin sonlarına "qurdun insana yerikləyən dövrü" də deyilir. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. Qışın bərk şaxtalı günlərinə həm də "Qışın qulun (atın balası) salması" dövrü deyilir.

Çillə bayramını xalqımız xüsusi qeyd edir, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görülür. Bəzi bölgələrdə Çillə bayramı adı ilə tanınan həmin gün həyətdə tonqallar yandırılır, odun üstündən tullanılır, tonqal ətrafında rəqs edilir, əyləncəli oyunlar, tamaşalar göstərilir. Böyük çillənin şərəfinə hər evdə açılmış süfrəyə bədənə istilik gətirən dadlı-ləzzətli yeməklər qoyulur. Böyük çillə süfrəsinin ən sayılıb-seçiləni çillə qarpızıdır. Bayram günü, demək olar ki, bütün evlərdə "çillə qarpızı" kəsilirdi. Hər kəs çalışardı ki, həmin gün evində "çillə qarpızı" olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab olunardı. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar. Çilləyə saxlanılması nəzərdə tutulan qarpızın ən yaxşısı tam yetişməmiş və saplaqlı olanı idi. "Çillə qarpızı" xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar. Çillə qarpızını, adətən, evin böyüyü kəsərdi. Onun tumları isə yığılıb saxlanılardı. İnanca görə, çillə qarpızının tumlarının atılması günahdır, onda növbəti il bol məhsul olmaz. Qarpız saxlamağa imkanı olmayan ailələr bazardan da olsa boranı, qarpız alıb bayramı qeyd edərlər. İnama görə, qışda ağ boranı bişirdikdə və ya qarpız kəsdikdə o il qış daha mülayim keçər və ruzili olar.

Çillə gecəsində nişanlı qızlara oğlan evindən hədiyyə göndərilməsi Naxçıvan bölgəsində adətdir. Qız evinə müxtəlif meyvələr, hədiyyə, şirniyyat ilə bərabər, çillənin rəmzi hesab olunan qarpız da göndərilir. "Çillələik" adlanan belə hədiyyələr xüsusi qablara qoyulur, üstü ağ və ya qırmızı şal ilə örtülür. Çillələik hava qaralmadan hazırlanıb göndərilir. Etnoqrafların yazdığına görə, qızın və ya gəlinin ana-atası hədiyyə gətirənləri üzərlik yandıraraq qarşılayar, hədiyyələri gətirənlərə şirinlik verərdilər.

Asəf Orucov və Elxan Yurdoğlunun "Naxçıvanda bayram və mərasimlər" kitabında qeyd olunur ki, çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti mövcuddur. Niyyət zamanı qarpızın baş tərəfini kəsib, dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə – ağ və ya göy olarsa, niyyət qəbul edilmiş olur. Bu adət ehtimal edilir ki, dörd fəsillə əlaqədardır. Atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və göy) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə izah olunur. Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilirdi. Çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Həmin gecə süfrəyə "Q" hərfi ilə başlanan nemətlər, məsələn, qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut və sair qoyma adəti də mövcuddur.

Artıq çillə sərt üzünü göstərməyə başlayıb. Soyuğu, çəni, dumanı ilə. Ancaq el arasında deyildiyi kimi, hər qışın bir baharı var. Baharı yenidən görmək ümidilə...

**Gülcamal TAHİROVA**

### Naxçıvan Muxtar Respublikası üzrə 21 dekabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2094 | 1562 | 532 |
| 2. | Babək rayonu | 8713 | 5392 | 3321 |
| 3. | Ordubad rayonu | 1057 | 175 | 882 |
| 4. | Culfa rayonu | 4883 | 3896 | 987 |
| 5. | Kəngərli rayonu | 5327 | 2671 | 2656 |
| 6. | Şahbuz rayonu | 1175 | 1050 | 125 |
| 7. | Sədərək rayonu | 1710 | 574 | 1136 |
| 8. | Naxçıvan şəhəri | 708 | 573 | 135 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25667** | **15893** | **9774** |

***İtmişdir***

Kazımov Qasım Kazım oğlunun adına Naxçıvan şəhəri Ə. Naxçıvani küçəsi bina 38, mənzil 23-ə məxsus 9453 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 960